# Xaricə səyahət etmək və orada qalmaq haqqında düşünürsünüzmü?

# Xaricdə olarkən təhlükəsiz şəraitdə olmaq üçün necə davranmalısınız?

**Miqrasiya - Hamının rifahı naminə!**

## Bu kitabçanı oxuyun!

Dünyada milyonlarla insan öz vətəninin hüdudlarından kənarda yaşayır, oxuyur və yaxud da işləyir. Bəlkə, siz də onlar kimi hərəkət etmək, başqa ölkəyə getmək istəyirsiniz. Ancaq qəti qərar qəbul etməzdən əvvəl mütləq etibarlı informasiya mənbələrinə müraciət edərək "lehinə" və "əleyhinə" olan hər şeyi ciddi ölçüb-biçmək lazımdır. Cünki adətən reallığa uyğun olmayan ümidverici perspektivlər barədə hekayələr eşidirik.

Əslində, miqrantlar xarici ölkələrdə qeyri-qanuni qalarsa, bir sıra cətinliklərlə üzləşə bilərlər. Çox vaxt miqrantlar xarici ölkələrdəki tələsik verilmiş qərarlardan və uğursuzluqlarından sonra gecikmiş peşmançılıq hissləri ilə etiraf edirlər: "əgər mən başıma nələr gələcəyini əvvəlcədən bilsəydim, ...".

Beləliklə, bunun qarşısını almaq üçün siz xarici ölkəyə getməzdən öncə və xarici ölkəyə gəldikdən sonra nə etməli olduğunuzu yaxşı bilməlisiniz.

Bu kitabça sizi maraqlandıran sualların çoxuna cavab tapmaqda, xaricdə daha təhlükəsiz və salamat qalmaqda kömək edə bilər.

**Beynəlxalq Miqrasiya Təşkilatı**
**sizə uğurlar arzulayır!**

"Mən Informasiya Texnologiyaları (IT) üzrə mütəxəssisəm. Almaniyada böyük şirkətlərin birində İT mütəxəssisi vakansiyası barədə məlumatı dövlət saytlarında tapdım. İşəgötürən mənə iş icazəsi göndərdi. Prosedurların bir neçə ay çəkməsinə baxmayaraq, mən əmək vizası aldım və ailəmlə birgə Almaniyaya getdim...müqaviləm uzadıldı və üç il keçməsinə baxmayaraq mən hələ də burada işləyirəm...".

"...Altı aydır ki, mən xəstəyə qulluq edirəm. Gecə-gündüz orada qalmağıma baxmayaraq, yaxşı ailədə işləyirəm, mənimlə normal rəftar edirlər və əmək haqqım vaxtında ödənilir..."

Yəqin ki, siz də bəzi digər həmvətənlərimiz kimi bəxtəvər ola bilərsiz, iş tapmağa müvəffəq ola bilərsiz, maddi durumunuzu yaxşılaşdıra bilərsiz və sonra vətəninizə geri qayıda bilərsiz.



## Lakin, bəzi hallarda bu cür də ola bilər:

"...Üç aydır ki, biz dözülməz şəraitdə işləyirik. Əmək haqlarımızı ala bilməmişik...geri də qayıda bilmirik, pasportlarımız əlimizdən alınıb..."

"Tikinti yerinin əvəzinə bizi zibilxanaya gətiriblər...biz burada yatırıq, yarı ac...xəstə vəziyyətdə..., imkan tapan kimi qaçdım".

"Sərhədi keçmək və vəd edilmiş iş üçün mən onlara 3.000 avro ödədim...dövlət sərhədinə yaxın bizi avtomobilin yük yerindən çıxardılar və gecə vaxtı biz meşədə cığırlarla hərəkət etdik...səhər artıq bizi müşayiət edən dəstəni tapa bilmədik...".



## Qeyri-qanuni miqrant kimdir?

Hər bir ölkə əcnəbilərin onun ərazisində gəlmək və olmaq prosedur və şərtlərini müəyyən edir. Müəyyən olunmuş qaydalara riayət etməyən şəxslər qeyri-qanuni miqrantlar hesab olunurlar. Bu şəxslər aşağıdakılardır:

- Dövlət sərhədini qanunsuz keçərək ölkəyə gələn şəxslər;
- Qanuni sənədləri olmadan ölkəyə gələn və ölkədə gizli qalan şəxsər;
- Qanuni sənədlərlə ölkəyə gələn, lakin ölkədə icazə verilən müddətdən artıq qalan və yaxud burada qanuni əsası olmadan qalan şəxslər;
- İş icazəsi və/və ya əmək vizası olmadan işə götürülən şəxslər.



## Qeyri-qanuni miqrasiya ilə müşayiət olunan təhlükələr hansılardır?

- Peşmançılıq
- Pul itgisi
- Əlverişli olmayan iş və yaşayış şəraiti
- Sağlamlıq vəziyyətinin pisləşməsi
- Aşağı əmək haqqı
- İnsan alverçilərinin toruna düşmək
- Məcburi qayıdış (deportasiya)



## Yadınızda saxlayın!

Miqrant qadınlar və uşaqlar daha həssasdırlar; onlar ayrıseçkiliyin müxtəlif formalarının qurbanlarına çevrilə bilərlər.
Belə ki, onlar əksər hallarda özəl sektorda xidmətçilər, xəstə baxıcıları, uşaq dayələri və cəmiyyətdən təcrid olunmuş iş şəraitlərində işləyirlər. Bəzən, bu əmək və cinsi istismar üçün təhlükəli şərait yaradır, fiziki və psixoloji təzyiq risklərini artırır.



# Sizə xaricdə iş təklif olunub?

**Ola bilsin ki, siz təhlükədəsiniz. Əgər...**

- Getmək üçün yekun qərarı verməyə tələsmisinizsə;
- Sizə xarici ölkəyə turist və ya qonaq vizası əsasında və yaxud vizasız gəlməyi təklif edirlər;
- Sizi əmin edirlər ki, təyinat ölkəsinin dilini bilmək, habelə hər hansı professional ixtisasa və ya iş təcrübəsinə malik olmaq zəruri deyil;
- Sizə xarici ölkəyə gəldikdən sonra işəgötürən ilə müqavilə imzalamağı vəd edirlər;
- Sizə saxta sənədlərdən istifadə təklif olunur və ya hüquqi sənədlərin hazırlanması və səyahət xərcləri üçün ödənişi xaricdə işlə təmin olunduqdan sonra etməyə icazə verilir;
- Sizin pasportunuz əlinizdən alınır.



# Təhlükədən uzaq olun!

**Təklif olunan işin doğruluğunu aydınlaşdırın.**

- Firmanın və ya işədüzəltmə agentliyin fəaliyyətinin qanuni olduğunu yoxlayın;
- Xaricdə partnyor agentliyin olub-olmamasını yoxlayın. Əlaqə məlumatını alın və sizi orada gözləyib-gözləmədiklərini müəyyənləşdirin;
- Getməzdən əvvəl özünüzlə müqavilə və ya işəgötürənin rəsmi dəvət məktubunu götürün;
- Sizə məlum olmayan dildə müqavilə imzalamayın, tərcüməsini tələb edin;
- Müqaviləni imzalamadan öncə hüquqşünasla məsləhətləşin.



# Yadda saxlayın!

- Əmək vizası almaq üçün xarici işəgötürən öz ölkəsində aidiyyətı qurumdan iş icazəsi əldə etməli və qabaqcadan sizə göndərməlidir;

- Bir qayda olaraq, siz xaricdə qanuni işləyə bilərsiniz, əgər ölkəyə əmək vizası ilə gəlmisinizsə;

- İş vizasının alınması proseduru uzun prosesdir. İş vizasını əldə etmək üçün təyinat ölkəsinin konsulluğuna müraciət etməlisiniz;

- Ölkəyə turist və ya qonaq vizası ilə gəlmək sizə qanuni işləmək icazəsi vermir; bu halda siz tamamilə işəgötürəndən asılı olacaqsınız, tibbi sığorta, əmək haqqınız verilməyə bilər, həbs edilmə və deportasiya riskləri çoxala bilər;

- Pasportunuzun surətləri və digər hüquqi sənədləriniz evdə saxlanmalıdır; ailənizlə əlaqə yaradın və onlara harada olduğunuz haqqında məlumat verin; həmişə pasportunuzu və pulunuzu özünüzdə saxlayın.

# Nəzərə alın!

İşləmək üçün əmək vizası bizimlə viza rejimi olmayan ölkələrdə (məsələn, Türkiyə, Ukrayna, Rusiya, Qazaxıstan və s.) də tələb olunur.

**Qeyri-qanuni miqranta çevrilmə!**
**Onları heç yerdə gözləmirlər!**

Azərbaycan vətəndaşları üçün məhdud olsa da, xaricdə yaşamaq, işləmək və məskunlaşmaq üçün imkanlar mövcuddur. Bunlara aşağıdakıları aid etmək olar:

## Avropa İttifaqına miqrasiya etmək imkanları haqqında Portal

http://ec.europa.eu/immigration/

## Avropa İttifaqından kənarda iş imkanları

**ABŞ**
http://www.dol.gov
http://www.foreignlaborcert.doleta.gov

**Avstraliya**
http://www.immi.gov.au

**Belarus Respublikası**
http://www.mintrud.gov.by

**Xorvatiya**
http://www.mup.hr

**İslandiya**
http://www.vinnumalastofnun.is

**İsveçrə**
http://www.treffpunkt-arbeit.ch
http://www.bfm.admin.ch

**Kanada**
http://www.cic.gc.ca
http://www.workingincanada.gc

**Norveç**
http://www.udi.no

**Rusiya**
http://www.fmsrf.ru

**Türkiyə**
http://www.adecco.com.tr
http://www.csgb.gov.tr
http://www.manpower.com.tr

**Ukrayna**
http://www.trud.gov.ua
http://www.dcz.gov.ua

**Yeni Zelandiya**
http://www.immigration.govt.nz

**Qlobal**
http://www.careerjet.co.uk

**Xaricdə məskunlaşmaq üçün qeyri-qanuni yolları axtarmamışdan öncə Beynəlxalq Miqrasiya Təşkilatının nəzdində yaradılmış Miqrasiya İnformasiya Mərkəzi ilə əlaqə saxlayın!**

**(+994 12) 465 11 95**
**İş vaxtları 09.30 - 17.30**
**Yaşar Hüseynov, 18, Bakı, Azərbaycan**



## Siz xarici ölkədə olarkən çətin vəziyyətə düşmüsünüz. Əgər...

- Pasportunuz əlinizdən alınır;
- Sizin sərbəst hərəkət azadlığınız məhdudlaşır;
- Sizə ailənizlə telefonda danışmaq qadağan edilir;
- Siz işləyirsiniz, lakin əvəzində sizə əmək haqqı ödənilmir;
- Sizi hədələyir və alçaldırlar;
- Sizə iradənizin əksinə nə isə etməyi məcbur edirlər;
- Viza rejimini pozduğunuza görə yerli polis qurumlarına təslim edilməklə hədələnirsiniz.



## Yadda saxlayın!

**Xaricdə sizin ölkənin səfirlikləri, qeyri-hökumət təşkilatları və aidiyyəti beynəlxalq təşkilatlar sizin hüquqlarınızı müdafiə edəcək. Beynəlxalq Miqrasiya Təşkilatı bır sıra ölkələrdə miqrantlara öz ölkələrinə könüllü geri qayıtmaqda kömək edir.**

- Ləyaqətinizi alçaldan vəziyyətlərə boyun əyməyin;
- Kömək üçün ilk növbədə öz ölkənizin səfirlik/konsulluğuna müraciət edin;
- Lazım olduqda yerli hakimiyyət orqanlarına, polisə və qeyri-hökumət təşkilatlarına müraciət edin.



**Əgər siz insan alverinin qurbanı olmusunuzsa, sizi hədələyən, sizin günahkar olduğunuzu deyən və sizə heç kimin kömək etməyəcəyini deyən şəxslərə etibar etməyin. Cəsarətli olun və yardım üçün addım atın! Ölkənizdə və xaricdə bir çox təşkilatlar sizə yardım etməyə hazırdir.**

## Səsinizi onlara çatdırın!

**Xarici Işlər Nazirliyi**
**Diplomatik Nümayəndəliklər**
http://www.mfa.gov.az

**İnsan alveri qurbanlarına kömək məqsədilə yaradılmış 24 saat ərzində xidmət göstərən "Qaynar xətt" xidməti**
152 (ölkə daxilindən zəng edərkən pulsuz)
(+994 12) 562 21 12

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İnsan alveri qurbanlarına Yardım Mərkəzi**
(+994 12) 562 93 21
(+994 12) 562 92 19

**Beynəlxalq Miqrasiya Təşkilatının nəzdində yaradılmış Miqrasiya İnformasiya Mərkəzi**
(+994 12) 4651195

**Bu kitabça "Azərbaycanda təhsil vasitəsilə insan alverinin qarşısının alınması üzrə maarifləndirmənin gücləndirilməsi"  layihəsi çərçivəsində hazırlanmışdır.**

**Layihə İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyinin maliyyə dəstəyi Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) tərəfindən həyata keçirilir.**


Schweizerische Eidgenossenschaft
Confédération suisse
Confederazione Svizzera
Confederaziun svizra

Federal Department of Foreign Affairs FDFA
**Swiss Agency for Development and Cooperation SDC**

International Organization for Migration (IOM)
Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT)

www.swisscoop.az

www.iom.az